# XALQIMI SƏN SAXLA, ALLAH

***Fəzail İsmayıl Böyükkişi***

Qarşımda məkrli yağıdır,
Mərd Xocalım göz dağıdır,
Qisasa qisas çağıdır,
Almalıyam haqla, Allah.

Könül tutqun, huş yayğındır,
Tufan, boran, qar çovğundur,
Qətli, qarətdir, soyğundur,
Zülmün yolun bağla, Allah

Bu nə qırğın, bu nə talan,
Ermənidir üzdə olan,
Kimdi gizlin qırğın salan,
Sonra kim var yoxla, Allah

Körpələr süngüyə keçir,
Qocalar don vurur, köçür,
Tank-plamyot türkü biçir,
Döndüm qorxunc nağla, Alllah

Bəs türk niyə acizləşir,
Murdar hayk da iblisləşir.
Xeyir ilə şər üzləşir,
Xeyri sağalt, sağla, Allah.

Duran nə çoxdur qəsdimə,
Gələn nə çoxdur üstümə,
Mənə yaman gün istəmə,
Qıyma mən tək oğla, Allah.

Bu qırğına dünya şahid,
Necə igid oldu şəhid.
Sənsən qadir, sənsən vahid,
Döyüş deyə çağla, Allah.

Dərd yağır dağa, arana,
Yurdum dönməsin virana.
Hökmün göstər qudurğana,
Ürəyini dağla, Allah.

Belə gəlsin haqdan səda,
Naxçıvan olmasın ada,
Kaş Heydərin yetsin dada,
Xalqımı sən saxla, Allah.
Xalqımı sən saxla, Allah.

**28.02.1992**

ədalət.-2017.-2 mart.-S.4.